# «Fərhad və Şirin» mövzusu Nizami və Nakam yaradıcılığında



***Nakamın poema yaradıcılığında "Dastani Fərhad və Şirin" əsəri də mühüm yer tutur. Nakam bu poemanı Nizaminin "Xosrov və Şirin" poemasına nəzirə yazmışdır.***

Məlumdur ki, "Xosrov və Şirin" süjeti Nizami Gəncəviyə qədər ərəb və farsdilli mənbələrdə-tarixçi Feofilakt Timokattanın, Sebeosun məlumatlarında, Zəkəriyyə Qəzvininin, Zəbuhullah Behruzun, Cahizin, Təbərinin, Səalibinin, Xandərin, Firdovsinin, Qətran Təbrizinin əsərlərində verilmişdir.

Dahi Nizami əsərinin sujetini Firdovsinin "Şahnamə"sindən götürərək yeni bir istiqamətdə işləmiş, eşq-məhəbbət dastanı yaratmış, həm də burada öz ictimai fikirlərini canlandırmışdır. Nakam isə bu əsərdən Fərhad macərasını götürüb işləmişdir. Şair "Dastani Məcnun və Leyli" əsərinə nisbətən bu kiçik həcmli əsəri hicri 1316-cı ildə yazaraq, öz xətti ilə köçürdüyü divanına daxil etmişdir. Əsər miladi tarixlə 1898-99-cu illərdə yazılmışdır.

Əsərin adından da gördüyümüz kimi, əsərdə əsas qəhrəman Fərhad olduğundan Xosrov əsərdə çox səthi verilmişdir.

Nakam da sələflərinin yolu ilə gedərək əsərin müqəddiməsində Allahı, peyğəmbəri tərif etmişdir. Sonra isə şair eşq və məhəbbət haqqında fikirlər söyləmişdir:

*Şeyx Nizami ki, suxən sazdır,*
*Bülbülü qüds ilə həmavazdır..*
*Nə xoş irad qılmış bu kəlami*
*Əleyhü rəhmətü rəhman Nizami.*

-deyə böyük Nizamini xatırlayıb, onun yaradıcılığına yüksək qiymət vermiş, özünü onun davamçısı adlandırmışdır.

Əsərdə Nakam yeri gəldikcə sərbəst hərəkət etmiş, Nizamidə olmayan epizodlar verərək Fərhadı geniş planda verməyə çalışmışdır.

O, poemanı İran hökdarları Hürmüz və Xosrovdan yox, Ərmənzəmin hökmdarı Məhinbanudan başlamışdır. Şair əsərin əvvəlində özü ilə dostları arasında gedən söhbətdə poemanı yazmasının əsas səbəbini çox aydın ifadə edərək yazmışdır:

*Mənəm bir aşiqi-aşüftə ahval,*
*Ki, bilməm necədir ruzü məhü sal.*
*Yanıb peyvəstə canım nazi-eşqə,*
*Olub huşim fəda aşari-eşqə,*
*Gəhi Fərhad vəş guhi-bəladə*
*Həvəsim tişəsi cəngi-cəfadə.*
*...Bilib əhvalımı bir neçə həmdəm.*
*Dərdimin sirrinə olmuşdu məhrəm.*
*...Dedilər mənə ey dərdü balakeş*
*Nədir bu dərdü, bu süziş, bu ataş?*
*Nəçün bitabsən, bərgəştə əhval,*
*Nədir bu məstlik, bu qəm, bu isqal?*
*Əgər Fərhadsan, kimdir o Şirin*
*Ki, etmişdir səni bu rütbə qəmgin?*
*Və gər Məcnunsan kimdir o Leyla*
*Ki, etmişdir səni məvhuni şeyda?*
*... Mələksə, edəlim təsxirə guşuş,*
*Fələksə edəlim tədbirə guşuş,*
*Nəşün öz adını Nakam edibsən*
*Olub bihuş, tərki-nam edibsən.*

Nümunə kimi verdiyimiz parçadan göründüyü kimi şair Leylini, Şirini öz gözəlliyi ilə kölgədə qoyan bir Şəki gözəlinə aşiq olduğunu söyləyir.

Nizamidə olduğu kimi Nakamın əsərində də Şirin Məhinbanunun yeganə qardaşı qızı kimi təqdim edilir. O da Şirinin gözəlliyini təsvir edərək onun kamalı haqqında söz açır:

*Sözü şirin idi, əndamı şirin,*
*Sərəpa şivəsi, həm namı şirin.* (4, s.76)

- deyə onu tərifləmişdi. Nakam Nizaminin "Xosrov və Şirin" poemasındakı Mədain əhvalatını, Şirin haqqında Şapurun Xosrova məlumatını və Sasani sarayına aid digər hadisələri təkrarən nəzmə çəkməyi lazım bilməmişdir. Nakam Nizaminin "Xosrov və Şirin" poemasında əvvəldən axıra qədər iştirak edən Şapur surətinin adını belə çəkmir.

Nizamidə Məhinbanu iki dəfə Xosrovu qarşılayır. Onun Şirinə olan məhəbbətini bildikdən sonra Şirinə namus və ismətini qoruması haqqında məsləhətlər verir, sonra vəfat edir. Nakamın Məhinbanusunun heç Xosrovdan xəbəri olmur. O, Şirinin gələcəyi, şəxsi həyatı barədə heç bir təsəvvürü və məlumatı olmadan vəfat edir.

İsmayıl bəy Nakam da süd və sürü əhvalatını, otlaqların saraydan çox uzaqda olduğu epizodu Nizamidə olduğu kimi təkrar edir. Onun Şirinlə Fərhadı ilk görüşdən bir-birinə vurulurlar. Ancaq Nakam elə başlanğıcdan Şirin ilə Fərhadı sevgililər kimi görüşdürür:

*Gəlib kiftarinə Şirini-suxəndan*
*Edib məşuqinə min nazü-pünhan.* (4, s. 83)

Fərhad hazırcavab bir gənc, mahir mühəndis olmaqla yanaşı, xoşsifət, qədd-qamətli bir igiddir. O, Şirinlə sərbəst söhbət edir:

*Dedi Fərhad kimi, bir naməradəm,*
*Adım Fərhaddır, Çini nijadəm.*

Nakam Şirinlə Fərhadı çoxdankı sevgililər kimi danışdırır. Fərhada eşq

yolundakı çətinliklərdən danışır. Fərhad bütün çətinliklərə sinə gərəcəyini söyləyir. O, hətta məhəbbəti yolunda canını belə qurban verməyə hazır olduğunu söyləyir:

*Dedi Fərhad yoxdur bakım ondan*
*Ki, aşiq eyləməz əndişə candan.*

Fərhad Şirinin gözəlliyinə o dərəcədə heyran olur ki, onun tapşırığını, nə barədə danışdığını yadında saxlaya bilmir. Şirinin məqsədini qulluqçulardan öyrənir və elə oradan da birbaşa dağa gedib, qart daşlarla çarpışmağa, arx qazmağa başlayır. O, tezliklə süd arxını, mərmər hovuzu düzəldir. Şirin onun işinə, sənətinə heyran qalır:

*Gəlib ol huriyi-gülzari-Rizvan,*
*Tamaşa qıldı hövzi, oldu heyran-*
*Ki, hövz sərbəti-şiri rəvandır,*
*Nə hövzə, hövzeyi-kövsər nişandır.*
*Verib Fərhada yer qürbində Şirin*
*Edib Fərhadə min təkərrümi təhsin.*
*Qılıb Fərhadə hər dəm min sitayiş*
*Edib izhar min üzri-nəvaziş.*

Şirin özünün bütün daş-qaşını minnətdarlıq əlaməti olaraq Fərhada verir. Nizaminin əsərində olduğu kimi burada da Fərhad hədiyyələri alır, göz yaşı ilə isladır. Şirinə afərin deyib ayaqlarına səpələyir, cəmiyyətdən uzaqlaşır, səhraların qoynunda həyat keçirir. Divanəlik edən Fərhad gündüzləri səhrada, gecələri isə süd hovuzunun yanında keçirir, süd içib uzaqdan Şirinə tamaşa edir.

Nakam əsərinin bu yerinə qədər Xosrovun heç adını da çəkmir. Lakin elə ki, Fərhadla Şirinin eşq macərası hər yana yayılır, Xosrov bunu eşidib narahat olur. Nakam Xosrovla Şirin məsələsini əlaqələndirmədən birdən-birə Xosrovu meydana çıxarır:

*Dedilər Xosrovu Pərvizə nagah*
*Edib əhvalatdan ol şahi agah.*
*Ki, Şirinə olub Fərhad məftun*
*Biyabəngərd olubdur, didə pürxun.*

Əhvalatdan həddindən artıq hiddətlənən Xosrov bir nəfər "pəhləvan" göndərib Fərhadı yanına çağırtdırır. Pəhləvan Fərhada şirin dil töküb Xosrovun yanına gətirir. Saraya gələn Fərhadın vüqarı, Xosrovun ənamlarına etinasızlığı hamıda, o cümlədən Xosrovda Fərhada qarşı böyük bir maraq oyadır. Sonra Xosrovla Fərhadın deyişməsi başlayır. Bu deyişmədə Nakam böyük bir sənətkarlıq nümayiş etdirərək öz müəllimi Nizamidən sonra söz mülkündə mühüm yer tutduğunu sübut edir. Fars-tacik ədəbiyyatının qüdrətli nümayəndəsi hesab edilən Hatifidən gətirəcəyimiz nümunədə Nakamın sənətkarlıq baxımından üstün olması göz qabağındadır:

Nizamidə "Xosrovla Fərhadın deyişməsi":

*Xosrov əvvəl sordu: "Hardansan, cavan?"*
*Fərhad cavab verdi: "Dost diyarından"*
*Dedi: "O diyarda hansı sənət var?"*
*Dedi: "Qəmi alıb, canı satarlar"*
*Dedi: "Canı satmaq heç ədəb deyil"*
*Dedi: "Aşiqlərdə bu əcəb deyil"*
*Dedi: "Ürəkdəndir çəkdiyim bu qəm"*
*Dedi: "Ürək nədir candan aşiqəm".*
*Dedi: "Əzizdirmi eşqi Şirinin"*
*Dedi: "Onu candan əziz bilirəm Şirin"*
*Dedi: "Ay tək onu gecə görürsən?"*
*Dedi: "Yuxum fəlsə yatırammı mən"*
*Dedi: "Qəlbin onu unudar haçan"*
*Dedi: "Torpaqlarda yatdığım zaman" ( 5, s. 193-194) və s.*

Hatifidə "Xosrovla Fərhadın deyişməsi":

*Əvvəl söylədi ki, haralı olduğunu bəyan et,*
*Cavab verdi ki, mən məlamət mülkündə kəm.*
*Sonra dedi, heç başından xəbərim yoxdur,*
*Dedi: sərxoş olan baş qəmini çəkməz,*
*Dedi: o pəriüzlünün qapısına getmə.*
*Dedi: o qapıdan başqa bir yerim yoxdur.*
*Dedi: onun bəndindən əlaqəni kəs.*
*Dedi: divanəyə bənd vurulsa yaxşıdır.*
*Dedi: onun zülfləri beynini qurutdu.*
*Dedi: bəli, müşkün xasiyyəti belədir,*
*Dedi: səbr ilə onun astanasından ayağını çək,*
*Dedi: səbrim yoxdur, ey vay, neyləyim.*
*Dedi: qapısına ox və qılınc yağar,*
*Dedi: heç ot da yağışdan doyarmı?*
*Dedi: mənim ay kimi günəşimi tərk et,*
*Dedi: sən gedib başqa fikir et,*
*Dedi: qılıncımla səni parça-parça edərdim.*
*Dedi: dəqdir budursa çarəm nədir. (1, s. 190-191)*

*Nakamda "Xosrovla Fərhadın deyişməsi":*

*Nə yerdir sordu ki, darəl-qərarın?*
*Nədir adın? O yerdə kəsbikarın?*
*Dedi: Fərhad adım bir mübtəladır,*
*Məqamım dari-mülki-aşinadır.*
*O yerdə qəm verirlər, can alırlar,*
*O yerdə can verib, can alırlar.*
*Dedi: Şirinin eşqindən güzər qıl*
*Bu vadidə xətər çoxdur, həzər qıl,*
*Ki, şirindir mənə məxsus məhbub*
*Mənim məhbubum olmaz qeyrə mətlub.*
*Eşitdi sözü biçarə Fərhad*
*Olub halı didərgün, qıldı fəryad,*
*Dedi, şaha xəyali şam edirsən*
*Tamam aşiqləri bədnam edirsən.*
*Deyilmişsən rumuzi-eşqə agah,*
*Rəhi-xasan deyil bu tutduğun rah,*
*Ki, aşiq eyləməzsə can tərkin*
*Olurmu eyləmək canan tərkin....*
*Mənəm məstaneyi-səhbayi Şirin,*
*Mənəm aşuftəyi-sövdayi Şirin....*
*Çu Fərhad eylədi bu növ təğrir,*
*Dili- hüzzara ahı qıldı təsir*
*Olub şərməndə Xosrov qaldı məhcub*
*Ki, oldu eşq davasında məğlub. (4, s. 89)*

Paralellərdən gördüyümüz kimi, Nakam daha orijinal yolla gedərək "dedi, dedi" formasında Hatifidən fərqli daha tutarlı deyişmə yaratmışdır. Bisutun dağının yarılmasının





Fərhada tapşırılması bütün poemalarda eynidir. Özündən əvvəlkilərdən fərqli olaraq Nakam burada artırır ki, Fərhadın gündüzlər Bisutun dağını çapıb parçalaması, gecələr isə Şirinin heykəli qarşısında dua etməsi xəbəri hər yana yayılır. Camaat hər yerdən axışıb Bisutuna - Fərhadın görüşünə gəlir.

Şirinin Bisutun dağına getməsi, Fərhadla görüşü, ona süd və şəkər piyaləsi verməsi, atının yorulması, Fərhadın atı çiyninə götürüb qəsri-Şirinə yetirməsi əhvalatı təkrar edilir. Nakamın artırdığı yeni epizod budur ki, güya Şirin Fərhadın Bisutun dağını yarmağı öhdəsinə götürməsi səbəbini bu vaxtadək bilmirmiş. Buna görə də o, Fərhada belə bir sual verir:

*Ki, ey Fərhadi-fərzanə nədir hal?*
*Nədir bu Bisutun, bu gürz-kupal?*
*Nədir bu guh, bu xara, bu güşiş?*
*Nə istərsən bu guhi-Bisutundan?*
*Nə istərsən bu səndi- səxtgundan.*

Fərhad Xosrovla görüşünü, onunla şərt bağlamalarını və bütün əhvalatı olduğu kimi Şirinə danışır, onun eşqi uğrunda bu möhnətlərə düşdüyünü söyləyir:

*Sənin məzlumunam, ey dadgahım,*
*Sənin üftadənəm, sənsən pənahım.*
*Sən atmışsan məni bu guhsarə,*
*Sənin sərgəştənəm, sən eylə çarə.*

Şirinin Bisütuna getməsini və Fərhadla görüşməsini Xosrova danışırlar. Şaha bildirirlər ki, Şirinin gülüşü Fərhada yeni qüvvət vermişdi. Nakam Fərhadı aldatmaq üçün Xosrovun göndərdiyi iftiraçı qocanı bizə "Xənnas" adı ilə təqdim edir:

*Didərgün hal olub tədbir etdi,*
*Pozub əhdin, rəhi-təzvirə getdi,*
*Qılıb amadə bir namərd zati,*
*Əzazil surəti Xənnas adı...*

Nizaminin əsərində bu idbar şəxsin xüsusiyyətləri, xarakteri söylənsə də şair ona heç bir ad verməmişdir. Poemanı Nizami əsərindən fərqləndirən xüsusiyyətlərdən biri də Fərhadın eşq şahidi olacağını qabaqcadan bilib öz nakam taleyi ilə bağlı vəsiyyətidir:

*Budur halım sənin eşqindən ey gül*
*Məgər gül eyləməzmi yadi-bülbül?!*
*...Mənim tək olmamış bir kəs balakəş*
*Mənim tək qılmamış bir kəs dəratəş*
*Mənim dərdim füzun, bəxtim nigundur,*
*Məqami görgahim Bisutundur.*

Fərhadın Xənnas adlı hiyləgər qarı tərəfindən öldürülməsini müəllif aşağıdakı kimi təsvir edir:

*Deyib Şirin edib cananını yad*
*Axıtdı qanini biçarə Fərhad.*

Fərhadın macərasından xəbərdar olan Şirin başdan-ayağa qarə geyinib, aşiqinin başı üstünə gedir. Nakam əsərində Şirin Fərhadın yanına gəlib çıxana qədər Fərhad ölmür. O, Şirinin gəldiyini hiss edib qan dolu gözlərini açır, dildarına baxır. Poemanın nöqsanlı cəhətlərindəndir ki. Nakam əsərin bəzi misralarını fars dilində yazmışdır.

Əsərdə Məhinbanu əsas surətlərdən biri kimi diqqəti cəlb edir. Adı Məhinbanudur. (Nizamidə isə onun əsl adı Şəmiradır). O, ədalətli hökmdardır, onun ölkəsində bərabərlik, bolluq və ədalət hökm sürür.

Şirin əsas qəhrəmandır. Son dərəcə gözəl olan Şirin həm də ədalətli hökmdardır. Süd arxı çəkdirərkən Fərhadla qarşılaşır. Nizami əsərində olduğu kimi pərdə dalında durub üzündə rübənd söhbət etmir. Fərhadla yanaşı oturub, naz-qəmzə ilə, göz vura-vura söhbət edir. Bu Şirin Nizaminin Şirinindən fərqlidir. O, Fərhadla axıradək səmimi davranır. Tez-tez aşiqin yanına gedir, söhbət edir, ona mənəvi güc verir. O, Xosrovun əhdi pozmasından qəzəblənir. Fərhadın ölümündən sarsılır. Nakamın poemasında təsvir edilən Şirin gözəl, ədalətli, səmimi bir qızdır.

Poemada Fərhadın ölümü Şirinin onu dəfn etməsi ilə qurtarır.

Əsərin baş qəhrəmanı olan Fərhad zəhmətkeş insanlar içərisindən çıxmış qüdrətli bir sənətkar surətidir. O, Çində təhsil almış, öz dediyi kimi Çin nəslindəndir. O, süd arxı çəkərkən Şirini görür, onu sevir və ömrü boyu bu eşqə sadiq qalır. Eşqin tüğyan edən zaman bədnam olmamaq üçün səhraya qaçır, orada yaşayır. Poemada Fərhadın səhradakı həyatı çox geniş və romantik planda verilir. Xosrovun hüzuruna gətirilərkən məğrur bir qəhrəman kimi əyilmir, gövhərə, zərə aldanıb öz məhəbbətindən uzaqlaşmır. Xosrovla deyişən zaman hazırcavab bir söz ustası kimi ona qalib gəlir. Şirinin vüsalı naminə Bisütunu yarmağa, oradan geniş yol açmağa razılıq verir. Bisütunda işin sona çatdırılması ərəfəsində şahın hiyləsi ilə məhv edilir. O, oz ölümü ilə də şaha qalib gəlir. Təmiz, yüksək, ülvi bir eşqə malik olduğunu sübut edir.

Şirinin Fərhadı dəfn etməsini, pərişan geri qayıtmasını təsvir etdikdən sonda Nakam öz-özünə müraciətlə deyir:

*Yetər bu nameyi-dilsuz, nakam,*
*Əgər aşiq isən sidqilə sən də.*
*İqamət eyləmə mülkü bədənlə,*
*Tərəqqi eşqdə Fərhad var ol,*
*Verib can, məhrəmi-didari yar ol!*

Poemanın sonunda verilən bu misralardan aydın olur ki, Nakam bu əsəri vəfat etmiş həyat yoldaşına həsr etmişdir.

Poema 11 fəsildən ibarətdir. Bu fəsillərin düzülüşü əsərin süjet xəttinin aydın, yığcam və ardıcıl olmasında nəzəri cəlb etməkdədir. Şair hər fəslə qafiyəli bir sərlövhə verməklə təkcə Nizaminin deyil, Füzulinin sənətindən də faydalandığını göstərmişdir. Fəsillərdəki sərlövhələrə diqqət etdikdə Füzulinin "Leyli və Məcnun" poemasını xatırladan əlaməti görmüş oluruq. Bizə məlum olan "Xosrov və Şirin", "Fərhad və Şirin" əsərlərinin heç birinin sərlövhələri qafiyəli yazılmamışdır. Əsərin bu xüsusiyyətini düzgün qiymətləndirərək Sədi Əfəndiyev yazır: "Nakam bu əsərində də Füzulinin sənətkarlığından təsirlənmiş, əsərin sujet xəttini qurarkən Füzulinin "Leyli və Məcnun" poemasının tərtib üsulundan istifadə etməyi məqsədəuyğun hesab etmişdir. Bu cəhətin özü də formal təqlidçilik kimi qiymətləndirilə bilməz. Çünki bu üsul əsərin maraqlı oxunması, bitgin məzmuna malik olması və istiqamətləndirici xarakter kəsb etməsi üçün yaradıcılıq axtarışı kimi, prinsipial əsaslardan biri kimi əhəmiyyətlidir" (3, s. 113)

Poema aşağıdakı sərlövhələr üzrə yazılmışdır:

I Fəsil - "Səbəb talib kitab".

II Fəsil - "Ağaz dastan Fərhad miskin və vəsf-cəmal dilarayi -Şirin"

III Fəsil - "Məhinbanunun vəfatı və Şirinin padşah olduğu və Fərhad miskinin Cəmali-Şirini müşahidə qıldığı"

IV Fəsil - "Fərhadın eşq Şirinə kiriftar olduğu və aşiq şeyda olmağı, aləmdə iştihar bulduğu".

V Fəsil - "Fərhadın mübtəlayi eşq Şirin olduğundan Xosrov Pərvizin agah olduğu və ehzarinə fərman verdiyi".

VI Fəsil - "Fərhadın məclis Xosrovda hazır olduğu və Xosrovun Bisütundan güşad-rah etməyə Fərhadı vadar qıldığı".

VII Fəsil- "Fərhadın Bisütunda tişəzənliyi və təriqi-eşq də ibtiday-guhkənliyi"

VIII Fəsil - "Fərhadın şabangahan-qüdum, təsviri Şirinə rumal olduğu və ta bə səhər zare-ginan ərz-əhval qıldığı"

IX Fəsil -"Şirinin Bisütuna gedib Fərhada etdiyi nəvaziş və Fərhadın tamaşayi-didar edib Şirinə qıldığı sitayiş".

X Fəsil- "Şirinin Bisütunda Fərhada ərz-cəmal etdiyindən Xosrovun agah və nəqş-əhd edib əsbabi dəsaisi dərkar qıldığı, aqibət Fərhadı amac xədəng-təzvir etdiyi və Fərhad -namuradın Bisütun eşqdə dərəceyi şəhadətə yetdiyi"

XI Fəsil -"Fərhadın goşteyi- bidad olduğundan Şirinin agah olub süguvar olduğu və Bisütunə gedib Fərhad-namuradı əndər-məzar qıldığı"

Əsər təxminən 1000 beytə qədərdir. Klassik poeziyanın ənənəsini davam etdirərək Nakam da poemanın məzmunundan qabaq "Töhid", "Minacat", "Nət", "İzhari iştiyaq didar həsrət risalət pənah" başlıqları altında 100 beytdən artıq bir giriş yazmışdır. Giriş adlandırdığımız hissədə şairin dini-mistik görüşləri əsas yer tutmaqdadır. Poema ilə bu hissənin demək olar ki, heç bir əlaqəsi yoxdur. Allah, peyğəmbər və imamlar haqqında dini fikirləri təkrar edən şair Allaha, peyğəmbərə müraciətlə həmin əsərini müvəffəqiyyətlə tamamlamaq üçün kömək istəmiş, dünyəvi eşq mövzusunda yazdığı bu əsərinə görə günahlarının bağışlanması üçün yalvarmışdır.

"Dastan Fərhad və Şirin" poeması Nizami mövzusunda yazılmış əsərlər sırasında özünəməxsus yer tutur.

**Kamil ADIŞİRİNOV,**
**AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı**

## Ədəbiyyat

1. Beqdeli Q. Şərq ədəbiyyatında "Xosrov və Şirin" mövzusu. -B.: Elm, 1970.
2. Cəfər Xəndan. Ədəbi qeydlər.- B.: Azərnəşr, 1966.
3. Əfəndiyev S. İ.Nakamın "Dastani-Fərhad və Şirin" əsəri haqqında// V.İ.Lenin adına APİ-nin elmi əsərləri.- cild XXVI.- 1963.
4. Nakam. "Divan" əlyazması.- M.-40.
5. Nizami G. "Xosrov və Şirin".- B.: Yazıçı, 1982.
6. Priyev Y. XIX əsr Azərbaycan ədəbiyyatında poema janrı.- B.: Yazıçı, 1988.

**Summary**

**The theme "Farhad and Shirin" of the poem Nizami and Nakam**

"Farhad and Shirin" faku great part Ismail bay Nakam's creative waerş The Great Azerbayjan poet Nizami Ganjave also used the legend of "Farhad and Shirin" im his poem "Khosrov and Shirin". We analyje the similarity and deferenses between. N. Ganjavi and Ismayil bay Nakam's creative works in this article.

**Резюме**

**Тема "Фархад и Ширин" в творчестве Низами и Накам.**

Поэма "Фархад и Ширин" занимает особое место в поэтическом творчестве Исмаил бек Накама. Даже выдающийся Азербайджанский поэт Низами Гянджеви в своем поэме "Хосров и Ширин" уделил особое место теме "Фархад и Ширин". В данной статье были исследованы характерные особенности разработки темы, были показаны схожие и иротиворечивые особенности обоих сюжетов.